# (HƏDIS (29 10

<"xml encoding="UTF-8?>

HƏDIS (29) 10

Hədis 280: İmam Həsən (ə) buyurur: “Kərəm odur ki, sənə ağız açılmamış əta edəsən.”

* * *

Hədis 281: İmam Həsən (ə) buyurur: “Gözlərin ən üstünü xeyir işlərdə çalışan gözlərdir.”

* * *

Hədis 282: İmam Həsən (ə) buyurur: “Özündən razı olmaq sizin nəsihət qəbul etməyinizə mane olur.”

* * *

Hədis 283: İmam Həsən (ə) buyurur: “İbrətlərdən nəsihət alın və keçmişdəkilərin başlarına gələnlərdən ibrətlənin.”

* * *

Hədis 284: İmam Həsən (ə) buyurur: “Dünya və axirət ağıl və düşüncə ilə əldə edilər.”

* * *

Hədis 285: İmam Həsən (ə) buyurur: “Xoş xasiyyət qədər başqa heç bir şey həyatı şirin etmir.”

* * *

Hədis 286: İmam Həsən (ə) buyurur: “Elminizi başqalarına öyrədin və başqalarının elmini öyrənin.”

* * *

Hədis 287: İmam Həsən (ə) buyurur: “Ağılın kamilliyi xalqla xoş münasibətdə olmaqdır.”

* * *

Hədis 288: Həzrət Əli (ə) buyurur: “Qəzəb və şəhvətinə məğlub olan şəxs dördayaqlılar (heyvanlar) sırasındadır.”

* * *

”.Hədis 289: Həzrət Əli (ə) buyurur: “Qardaşına quyu qazanın özünü Allah o quyuya salar